# Sabir Rüstəmxanlı

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

*15 cilddə*

I

CİLD

**SABİR RÜSTƏMXANLI**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

**15 cilddə**

**I cild**

**ŞEİRLƏR**
**1962-1977**

Azərbaycan milli
kitabxanası

BAKI - 2021

## ÇALINAN FÜZULİ KANTATASIDIR

Çalınan Füzuli kantatasıdır!
Çaylar gurultuyla axır, elə bil.
Şəlalə tökülür, külək səslənir,
İldırım başımda çaxır, elə bil.

Uçur meteorlar, dinir ulduzlar
Səslərin hüdudsuz asimanında.
Hər xalda min ilin hafizəsi var,
Min nəslin qeyrəti dirilir qanda.

Könlümdə sabahın sirli sorağı,
Dünyanın rəngləri itir gözümdən.
Elə bil, durmuşam bir qürub çağı
Gurlayan dalğalar arasında mən.

Başımda günəşin qızıl çələngi,
Ayağım altında nərildəyən su,
Gözümdə göylərin ilahi rəngi,
Qəlbimdə xalqımın böyük arzusu.

Qulağım yorulmur, qəlbim doymayır
Ucsuz ümmanların səslənməsindən.
Durmuşam ağ saçlı əcdadımızın
Müqəddəs ruhları arasında mən!



Çalınan Füzuli kantatasıdır –
Ölməzlik ümidi, qisas harayı...
Tarixin səsidir hər sirrə açar
Bu yolsuz dünyada yollar arayır.

Keçir azadlığın ulu karvanı,
Ədalət diz çöküb öpür torpağı.
Musiqi çiyninə alır dünyanı,
Musiqi səslənir zəfər qabağı.

Çalınan Füzuli kantatasıdır,
Sevgi dahisinin kədəridir o!
Şair ürəyinin ahı, harayı,
Bəstəkar qəlbinin hünəridir o!